Həmişə onun şahidi olmuşuq ki, Azərbaycan Prezidenti dediklərinə əməl edib. Bu dəfə də belə oldu. Bu il dekabrın 18-də "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev, İtaliyanın "Ansaldo Energia" şirkətinin rəhbəri Marino Guiseppe və İtaliyanın ölkəmizdəki səfiri Augusto Massarinin iştirakı ilə Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatının İtaliya şirkətinin həyata keçirməsi barədə müqavilə imzalanmışdır.

Dekabrın 19-da isə energetika naziri, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Pərviz Şahbazovla İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefano arasında videokonfrans formatında keçirilən görüşdə Azərbaycan-İtaliya arasında ikitərəfli əməkdaşlığın gündəliyinə daxil olan məsələlər ətraflı müzakirə edilmişdir. İtaliya şirkətləri ilə əməkdaşlığın Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanmışdır. İtaliya şirkətləri ilə energetika infrastrukturunun bərpası, şəhərsalma, ərazilərin minalardan təmizlənməsi, tarixi abidələrin bərpası, turizm, kənd təsərrüfatı sahələrində layihələrin həyata keçirilməsi müzakirə olunmuşdur.

Dekabrın 7-də Azərbaycan Prezidenti İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən qonaqlara müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyəti olduqlarını dedi, əlaqələrin ən yüksək səviyyədə olduğunu vurğuladı: "Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək".

Azərbaycan İtaliyanın Dağlıq Qarabağ münaqişəsində və 44 günlük müharibədə nümayiş etdirdiyi mövqeyini yüksək qiymətləndirir və qarşılıqlı əməkdaşlığı bütün istiqamətlərdə inkişaf etdirmək niyyətindədir. Dövlət başçısı hesab edir ki, bərpa dövründə dost ölkələrin şirkətlərinə önəm verilməlidir: "Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yaralı hərbçilərlə görüşüb

Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi, işğal altındakı torpaqlarımız azad olundu. Bu müharibədə xalqımız yüzlərlə şəhid verdi, yaralanan hərbi qulluqçularımız oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb, normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq..."





Muxtar respublikada Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərin müalicəsi, eləcə də onların sağlamlıqlarının bərpası diqqətdə saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Vətən müharibəsində yaralanan və Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicələrini davam etdirən hərbçilərlə görüşüb.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri hospitalda müalicə olunan hərbçilərin səhhəti və qidalanması ilə maraqlanıb, onlarla söhbət edib, Vətən müharibəsində göstərdikləri şücaətin qürurverici olduğunu bildirib.

Yaralı hərbi qulluqçu, "Azərbaycan bayrağı" ordenli mayor Təbriz Zeynalov öz adından və döyüş yoldaşları adından minnətdarlıq edərək deyib ki, dövlətin qayğısını daim üzərimizdə hiss edirik. Həkimlər sağlamlığımızın bərpasına hərtərəfli kömək edirlər. Biz də bu qayğıya cavab olaraq ordu sıralarına qayıtdıqdan sonra xidmətimizi yenə də uğurla davam etdirəcəyik.

Hospitalda müalicə alan yaralı hərbi qulluqçulara hədiyyələr təqdim olunub, aparılan şirniyyatlar mətbəxə verilib.

# Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və "Bravo" supermarketlər şəbəkəsi işğaldan azad olunmuş ərazilərdə hərbi qulluqçularımız üçün dəstək aksiyasına başlayıb









Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və "Bravo" supermarketlər şəbəkəsi işğaldan azad olunmuş ərazilərdə xidmət edən hərbi qulluqçularımız üçün yeni dəstək aksiyasının həyata keçirilməsinə başlayıb.

AZƏRTAC xəbər verir ki, aksiya çərçivəsində dekabrın 18-dən başlayaraq Kəlbəcər rayonu, Xocavənd rayonunun işğaldan azad olunmuş hissəsi və Hadrut qəsəbəsində hərbi xidməti davam etdirən əsgər və zabit heyəti üçün, onların istəkləri nəzərə alınmaqla müxtəlif qida məhsulları, fərdi qulluq və gigiyenik ləvazimatlardan ibarət bağlamaların çatdırılmasına başlanılıb.

Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə "Bravo" supermarketlər şəbəkəsinin nümayəndələri işğaldan azad olunmuş ərazilərə səfər edərək bağlamaları hərbi qulluqçularımıza çatdırıblar, həmçinin əsgərlərimizlə söhbət edərək onların istəklərini qeydə alıblar.

Hərbi qulluqçularımızın istək və ehtiyaclarının qarşılanmasına xüsusi həssaslıqla yanaşan Mehriban xanım Əliyevanın təşəbbüsü çərçivəsində növbəti günlərdə işğaldan azad olunmuş digər ərazilərə də səfərlər təşkil ediləcək.

Aksiyanın davamlı şəkildə həyata keçirilməsi nəzərdə tutulub.

# Azərbaycan dünyada ən islahatçı ölkə kimi tanınır

*Əvvəli 1-ci səh.*

Bankın ölkələrin 10 indikator üzrə qiymətləndirilməsi məqsədini daşıyan "Doing Business" hesabatı biznes mühitinin dəyərləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. Burada hər il ölkələr üzrə aparılan islahatlar həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi davamlı sosial-iqtisadi inkişaf siyasəti, çoxşaxəli islahatlar bu qurum tərəfindən diqqətlə izlənilir. Odur ki, biznes mühitinin yaxşılaşdırılması istiqamətində son illər ölkəmizdə görülən işlər Dünya Bankının hesabatlarında da öz dolğun əksini tapır və yüksək dəyərləndirilir.

Beləliklə, "Doing Business" hesabatında Azərbaycanın mövqeləri getdikcə nəzərəçarpacaq dərəcədə yüksəlib. İndi 190-dan çox ölkə arasında qabaqcıl yerlərdən birini tuturuq. Azərbaycan bu sırada dünyanın bir çox ölkələrini geridə qoyub, Müstəqil Dövlətlər Birliyi ölkələri sırasında isə lider mövqeyə yüksəlib.

Yeri gəlmişkən qeyd edək ki, mənfur qonşularımızın işğalçılıq siyasəti, faşizm xisləti onların ölkəsini hər cür inkişafdan geridə qoyub. İqtisadiyyatı gündən-günə tənəzzülə uğrayan, əhalisi baş götürüb dünyaya səpələnən Ermənistan çətin ki, nə vaxtsa yüksək reytinqlər qazana bilər. Ermənilər yalnız ağıllarını başlarına yığsalar, ağır vəziyyətdən çıxarlar.

Azərbaycanın inkişafı isə göz qabağındadır. Ölkəmizdə həyata keçirilən çoxsahəli, çoxşaxəli və davamlı islahatlar istər Dünya Bankı, istərsə də digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən izlənilir və qiymətləndirilir. Bütün bunlar Azərbaycanın dünyanın sayılıb-seçilən ölkələrindən olduğunu bir daha təsdiqləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Kommersant" qəzetinin müxbiri Azərbaycan Prezidentinin MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışını qələbə nitqi kimi qiymətləndirib

Dekabrın 18-də MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilmiş sammitində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı Rusiya KİV-in diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, bu ölkənin aparıcı nəşrlərindən olan "Kommersant" qəzetinin "Kreml pulu" deyilən jurnalistlər qrupuna daxil olan müxbiri Andrey Kolesnikov ali tədbirə həsr olunmuş məqaləsində Azərbaycan Prezidentinin çıxışını qələbə nitqi kimi qiymətləndirib.

Jurnalist yazır ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin sədrliyi ilə təşkil olunmuş tədbirdə Ermənistan baş nazirindən başqa MDB-yə daxil olan bütün dövlətlərin başçıları iştirak edirdi.

A.Kolesnikov xatırladıb ki, Azərbaycan Prezidenti sammitdə ilk çıxışçı idi. Onun bir saat davam edən, demək olar, bütövlükdə Azərbaycan xalqının düşmənlə mübarizəsinə və düşmən üzərində qəti qələbəsinə həsr olunmuş nitqinin məğzi belə idi: "Biz Ermənistanı məğlub etdiyimiz kimi, koronavirusa da qalib gələcəyik".

Jurnalist yazır ki, MDB üzrə həmkarları Prezident İlham Əliyevi müəyyən gərginliklə dinləyirdilər. Azərbaycan Prezidenti onlara Ermənistanın işğalçı dövlət olduğunu, danışıqların davam etdiyi 28 il ərzində dünya birliyini aldatdığını, bir santimetr də olsun torpaq qaytarılmayacağı barədə bəyanatları, işğal olunmuş ərazilərin qeyri-qanuni məskunlaşdırılmasını, ATƏT-in Minsk qrupunun isə danışıqlar prosesinə, yeni heç bir töhfə verməyə qadir olmadığını xatırladıb. A.Kolesnikov Azərbaycan liderinin "Ermənistanın hərbi-siyasi rəhbərliyinin belə bir bəyanatı da olmuşdu ki, bizi qorxutmağa çalışırdılar, əgər Azərbaycan, necə deyərlər, münaqişənin nizamlanmasına dair öz mövqeyində bundan sonra da israr edərsə, tezliklə erməni tankları Bakının küçələrində olacaq. Nəticədə belə də oldu, amma erməni tankları bizim küçələrdə dekabrın 10-da Azərbaycanın bu müharibədə Zəfərinə həsr edilmiş hərbi paradda hərbi qənimətlər kimi göründü" sözlərini xüsusi diqqətə çatdıraraq yazır: "İlham Əliyev rahat və inamla danışırdı. Onun nitqində bir kəlmə də olsun artıq söz yox idi, dəqiq formalaşdırdığı fikirləri, heç şübhəsiz, Azərbaycan PUA-ları erməni tanklarını vurduğu kimi, birbaşa hədəfə dəyirdi. Qarşımızda Azərbaycan xalqının liderini görürdük. Tarixboyu bu xalqın hələ belə lideri olmamışdı və xalq özü də indi buna əmindir".

Sammit iştirakçılarının Azərbaycan Prezidentini diqqətlə dinlədiklərini vurğulayan müxbir yazır: "Görünür onların hər biri özünü ambisiyalarından asılı olaraq gah Nikol Paşinyanın, gah da İlham Əliyevin yerində hiss edirdilər".

Azərbaycan Prezidentinin İkinci Qarabağ müharibəsi dövründə düşmən tapdağı altından azad edilən şəhər və rayonların adlarını sadaladığını, noyabrın 8-də qədim Azərbaycan şəhəri, Qafqazın incisi Şuşanın işğalına son qoyulması ilə hərbi əməliyyatların başa çatdığını söylədiyini qeyd edən A.Kolesnikov onun "darmadağın edilmiş ordu Paşinyanın ordusu deyil, bu, 20 il ərzində Koçaryanın və Sarkisyanın yaratdığı ordudur" sözlərini də sitat gətirib. Onun fikrincə, Azərbaycan Prezidenti bu sözləri üçtərəfli müqavilənin sonadək yerinə yetirilməsinə nail olmaq üçün deyib.

Sonda A.Kolesnikov yazır: "İlham Əliyev "biz, Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik" sözləri ilə öz benefisini başa çatdırdı. Qəribə idi ki, alqış səsləri eşidilmirdi. Sammitdə bundan sonra baş verənlər isə artıq heç bir əhəmiyyət kəsb etmirdi".

## Teymur Əhmədov - 90

**Professor Teymur Əhmədovun böyük ömür yolu, humanitar fikrimizin müxtəlif sahələrindəki yorulmaz fəaliyyəti, çeşidli janrlarda qələmə aldığı çoxsaylı əsərləri ona ədəbi-elmi fikrə şöhrət və nüfuz qazandırmışdır. Xalqımızın bir əsrə yaxın zaman hüdudlarındakı ən mürəkkəb ictimai, sosial və ədəbi-mədəni hadisələrin şahidi, iştirakçısı, ona dəyər və təhlil verən müəllif kimi öz vətəndaşlıq mövqeyi, prinsipiallığı ilə seçilən ziyalı nəslinin yadigarlarındandır. Professor Teymur Əhmədov, ilk növbədə, tədqiqatçı alimdir, görkəmli ədəbiyyat tarixçisidir. "Ədəbi-bədii fikir tarixindən" başlıqlı əsəri XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının milli və ictimai xadimlərin yaradıcılıq yolunun tədqiqinə həsr edilmişdir. Ədəbiyyat tarixi sahəsində böyük xidmətləri olmuş müəllimlərinin şərəfli işlərini davam etdirən Teymur Əhmədov A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh, M.F.Axundzadə, N.Nərimanov, H.Zərdabi, S.Mümtaz və digər klassiklər haqqında yeni söz demək üçün uzun illər keçmiş SSRİ-nin müxtəlif arxivlərində axtarışlar aparmış, bu klassiklərin ədəbi irsindəki və ictimai fəaliyyətindəki qiymətli məqamları üzə çıxartmışdır ki, onlar milli tərəqqiyə, milli ictimai şüurun inkişafına təkan vermişdir. Bu klassiklər içərisində T.Əhmədovu bütün yaradıcılığı boyu düşündürən və məşğul edən Nəriman Nərimanovdur. Nəriman Nərimanov irsinin toplanması, nəşri və tədqiqinə görə xalqımız Teymur Əhmədova minnətdardır.**



# Şərəfli ömür yolu

Azərbaycan xalqının tarixi taleyində müstəsna xidmətləri olan böyük-ictimai siyasi xadim, görkəmli ədib Nəriman Nərimanov fenomeninə XX əsrin hər tarixi mərhələsində münasibət fərqli olmuşdur. Bunun başlıca səbəbi siyasi konyunktura ilə yanaşı, N.Nərimanov fenomenini müəyyən edən tarixi-siyasi gedişatın mahiyyətini və Nərimanovun bu fonda böyük ədəbi-siyasi şəxsiyyət kimi təkamül prosesini əks etdirən fakt və sənədlərin bütövlükdə ortada olmaması, ona verilən təhlillərin elmi vüsət və vətəndaşlıq kəsərinin zəifliyində idi.

Professor Teymur Əhmədov XX əsr Şərqinin böyük ədəbi-ictimai siması olan N.Nərimanova abidə qoymuşdur. Bu abidənin möhtəşəmliyi ona sərf edilən yarım əsirlik vətəndaş-alim ömrünün məzmununu ifadə edir. Teymur Əhmədov humanitar elmin müxtəlif sahələrini özündə ehtiva edən "Nərimanovşünaslığın" banisidir. Çoxsaylı kitabları, tərtibləri, məqalələri ilə bunu elmi reallığa çevirmişdir. Onun əsərlərində N.Nərimanov fenomeni bütün tərəfləri ilə XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan, Qafqaz, Rusiya hüdudlarında baş verən siyasi, ictimai və ədəbi-mədəni tarixi gedişat zəminində öyrənilir. Moskva, Tiflis, Sankt-Peterburq, Bakı, Həştərxan kimi arxivlərdə çalışdığı uzun zaman müddətində N.Nərimanovla bağlı çoxsaylı sənədləri üzə çıxaran Teymur Əhmədov, eyni zamanda ədəbi-tarixi prosesin də mahiyyəti, məzmunu haqqında dolğun təsəvvür yaradır. Başqa sözlə, bu dövrün ədəbiyyat tarixi, mətbuatın milli-ictimai məzmunu haqqında sistemli elmi kontekst formalaşdırılıb.

Professor Teymur Əhmədovun bu əsərini "N.Nərimanov" ensiklopediyası da adlandırmaq mümkündür. Bu başlıqda nəşrin ortaya çıxacağına şübhə etmədən cəsarətlə demək olar ki, bu səpgidə yaranacaq əsərin də bütün parametrlərini burada tapırıq. Nəriman Nərimanovun dövrü, mühiti, ictimai-siyasi görüşləri, ədəbi-mədəni sahədəki böyük fəaliyyəti, onun tədqiq tarixi, dünyagörüşünün formalaşması və təkamülü kimi amillər ilk dəfədir ki, eyni müəllif, tarixilik prinsiplərinə əsaslanan konsepsiya və yüksək vətəndaşlıq mövqeyindən təqdim olunur.

Nəriman Nərimanovun yaradıcılıq yolu XIX əsrin sonu - XX əsrin ilk onillikləri kimi çoxşaxəli gerçəkliyin fonunda keçmişdir. Yalnız vətəndaş tədqiqatçı inadkarlığı ilə bu dövrün mətbuat tarixini, onun görkəmli təmsilçilərindən olan N.Nərimanovun tarixi xidmətlərinin vüsətini, xalqın tərəqqisində rolunu üzə çıxartmaq mümkündür. Müəllif bu missiyanı bu gün də davam etdirir.

Teymur Əhmədovun bu əsərində ədəbiyyatşünas, tarixçi, teatrşünas və mübaliğəsiz demək olar ki, ictimai-siyasi gedişatı, dövlətçilik, milli müəyyənlik məsələlərini obyektiv dəyərləndirən fəlsəfi düşüncə, fəlsəfi mühakimə və ümumiləşdirmə qüdrətinə malik tədqiqatçı "məni" özünü büruzə verir.

Əsərin ədəbi-elmi ictimaiyyət üçün mühüm dəyərlərindən biri N.Nərimanovun ədəbi-siyasi, ictimai portretini yaratmaqda əsas təhlil üsulu kimi bədii yaradıcılığının estetik tutumu ilə ictimai görüşlərinin paralel, müqayisəli təhlil olunmasıdır. Müəllifin bu barədə vaxtı ilə Y.Qarayevin aşağıdakı mülahizələrinə tərəfdar olması Teymur müəllimin bir tədqiqatçı kimi yüksək elmi əxlaqının təsdiqidir. "Tarixi Nadirin ideya və islahatları əsərdə yeni bir məna və vüsət almış, dövlət və cəmiyyət haqqında N.Nərimanovun öz manifestini elan edən vasitəyə çevrilmişdir" (Y.Qarayev).

Kitabın böyük bir fəsli N.Nərimanovun teatr mədəniyyətinin inkişafında xidmətlərinin tədqiqinə həsr edilmişdir. Vaxtı ilə akademik M.İbrahimov yazırdı: "... Nərimanov birinci dəfə olaraq böyük rus yazıçısı Qoqolun "Müfəttiş" komediyasını azərbaycancaya tərcümə etmiş və Qorodniçi rolunu özü oynamışdır". Kitabda N.Nərimanovun elm aləminə məlum olmayan, müxtəlif qəzetlərdə dərc olunmuş məqalələri, həmçinin müxtəlif nəşrlərdə əksini tapmış informasiyalar əsasında onu bir teatr xadimi kimi tanıda bilir və tədqiqatçının özünün də teatr tarixi haqqında zəngin məlumat sahibi olduğunu sübut edir. Kitabın "Nəriman Nərimanov və teatr mədəniyyəti" fəsli teatr tarixinin tədqiqi məqamında bir neçə baxımdan əhəmiyyətlidir. Əvvələ teatr mədəniyyətinin müəyyən zaman kəsiyində təkamül prosesi dramaturgiya, mətbuat və teatr hadisələrinin kontekstində tədqiq olunur. Müəllif bu zaman teatr mədəniyyətini irəli aparan yaradıcılıq prinsiplərini, həyat və teatr sənəti arasındakı "ünsiyyətin" tarixi mahiyyətini obyektiv müəyyənləşdirir. Bu bölmədə müəllifin öz sələfləri olan həmkarının fəaliyyətinə yüksək dəyər verir və sübut edir ki, ədəbiyyat, mətbuat tarixi ilə yanaşı, teatrşünaslığın da nüfuzlu nümayəndələrinin yaradıcılığına dərindən bələddir və bu sahədə yeni söz demək iqtidarındadır.

T.Əhmədovun tədqiqatçılıq təcrübəsi bu gün sanballı örnəkdir. Onun N.Nərimanovun yaradıcılığı ilə bağlı Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsinə qədər və sonrakı dövrdə elmi təhlilə cəlb edilən faktların əksəriyyəti məhz Teymur Əhmədova məxsusdur və XX əsr ədəbiyyat tarixinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Təkcə onu demək kifayətdir ki, 1929-1935-ci illərdə, sovet dövrünün plüralizmə imkan verdiyi bir müddətdə nəşr edilmiş "Literaturnaya ensiklopediya" kimi tarixi əhəmiyyətini itirməmiş bir nəsrdə N.Nərimanov haqqında yazılar ümumən Azərbaycan ədəbi-mədəni sərvətləri haqqında mülahizələr təsəvvürü yaradır.

Dövrünün nüfuzlu alimləri tərəfindən bu möhtəşəm elmi nəşrdə N.Nərimanov irsi fonunda ədəbi-ictimai fikir tariximizə ötən əsrin 20-ci illərinin münasibəti dəyərləndirilir. H.Zeynallıdan sonra bu nəşrə bir mənbə kimi ciddi elmi münasibəti T.Əhmədovun göstərilən tədqiqatında görürük.

N.Nərimanovun ədəbi-nəzəri görüşləri bu kitabda ilk sistemli təhlilini tapır və ədəbi-fikir tariximizin yaradılması baxımından müəyyən boşluğu doldurur. Müəllif haqlı olaraq göstərir ki, "N.Nərimanovun tənqidi görüşləri ictimai fəaliyyəti ilə üzvi bağlı olmuşdur". T.Əhmədov N.Nərimanovun ədəbiyyat və sənət haqqında mülahizələrini ədibin bədii və siyasi dünyagörüşü ilə vəhdətdə təhlil edir. Onun estetik görüşlərinin mərkəzində maarifçilik, həm də, milli-mənəvi müəyyənliyin daşıyıcısı kimi dəyərləndirilir. Müəllif haqlı olaraq belə nəticəyə gəlir ki, N.Nərimanov sənətin ali missiyasını milli-mənəvi tərəqqiyə xidmətdə görürdü. N.Nərimanovun rus və dünya ədəbiyyatının görkəmli əsərlərinə bələdliyi, bu əsərlərdə təlqin olunan böyük humanist ideyaların onun ədəbi görüşlərinə təsiri də monoqrafiyada kifayət qədər dolğun elmi şərhini tapıb.

Azərbaycan Respublikasında obyektiv elmi mühitin, bu sahədə demokratik meyarların bərqərar olduğu bir zamanda görkəmli ədəbi, ictimai-siyasi şəxsiyyətlər haqqında tarixilik prinsipinə əsaslanmayan subyektiv mülahizələrə ən yaxşı cavab fundamental əsərlərin ortada olmasıdır. Bu baxımdan monoqrafiya haqqında akademik K.Talıbzadənin aşağıdakı fikirləri müasir ədəbiyyatşünaslıq elmimiz üçün də dəyərli tövsiyədir: "T.Əhmədovun N.Nərimanov haqqındakı bu qiymətli əsəri elmi fikrimiz üçün belə bir həqiqəti aşkara çıxarır ki, Azərbaycan ədəbiyyatşünaslığının hələ ayrı-ayrı klassiklərə həsr olunmuş monoqrafik tədqiqatlara ciddi ehtiyac var. Qoy xalq həyatından, milli mədəniyyətimizn ruhundan, arxivimizdən, təzkirələrimizdən, mətbuat tariximizdən xəbərsiz ədəbiyyatçılar bilsinlər ki, hər hansı sənətkarın bioqrafiyasından, arxivlərdə unudulmaqda olan faktlardan kənarda bir çox nəzəri problemləri lazımi səviyyədə, dürüstlüklə həll etmək çox çətindir. T.Əhmədovun yeni tədqiqatı bu cəhətdən də diqqəti cəlb edir".

Professor Teymur Əhmədovun göstərilən əsəri N.Nərimanovun şəxsiyyəti və yaradıcılığı, görkəmli dövlət xadimi kimi fəaliyyəti ilə yanaşı, böyük tarixi bir dövrün gedişatı haqqında mükəmməl elmi təsəvvür yaradır. Teymur müəllim böyük ziyalılar nəslinin yetişdirməsi və davamçısıdır. O, F.Qasımzadə, S.Vurğun, M.Cəlal, M.İbrahimov, M.Arif kimi şəxsiyyətlərin yaratdığı elmi əxlaq dərslərini yeni nəsillərə ötürən, həyat haqqında, insani münasibətlər barədə öz qənaətləri olan orijinal alimdir. Öz müəllimlərinə, öz ustadına olan ehtiramını onun ən ciddi elmi tribunalardakı yarım əsrdən bəri şahidi olduğum çıxışlarında görmüşəm. Xüsusən elmi rəhbəri olmuş xalq yazıçısı, akademik M.İbrahimov, professor M.Cəlal haqqında tədqiqat və nəşrləri ibrətamiz örnəklərdir. Bura Səməd Vurğun, Abdulla Şaiq haqqında kitabları da əlavə etsək, onun tədqiqatlarının elmi-praktik əhəmiyyəti haqqında təsəvvür genişlənər. Teymur müəllimin digər sahələrdəki fəaliyyətinin ədəbi-mədəni fikir tariximizdəki yerini, çəkisini azaltmadan, onun Mirzə İbrahimov sənətinə və şəxsiyyətinə sabit, dəyişməz ehtiram və sevgisini Mirzə müəllim haqqında nəşr etdirdiyimiz xatirələr kitabının hazırlanması prosesindəki əməkdaşlığımız zamanı görmüş, bu məqamda ustad, müəllim yolunu əziz tutmağın nəcib, ibrətamiz, əyani nümunəsindən çox öyrənmişəm.

Mirzə İbrahimovun adı ilə bağlı məktəb böyük milli ideallarınn, kişilik, ustadlıq, sənət-elm amallarının qovuşduğu mənəvi məkandır. Onun görkəmli tələbəsi, yorulmaq bilmədən milli-mədəni tərəqqi yolunda həsəd doğuran gənclik ehtirası ilə çalışan professor Teymur Əhmədovun "Akademik Mirzə İbrahimov" əsəri təkcə bu böyük şəxsiyyətin yaradıcılığı ilə məhdudlaşmır, XX əsr Azərbaycan ədəbi-nəzəri fikrinin əsas inkişaf yönümləri, bu sahədəki dövlətçilik meyarları, hakim siyasi rejimlə ədəbi-mədəni həyatın kəsişən və ayrılan yolları haqqında zəngin faktik materiala təsəvvür yaradır.

Mirzə İbrahimovun mürəkkəb, xalqın taleyi ilə bağlı ziddiyyətli, ağrılı-acılı zaman hüdudlarındakı çoxşaxəli fəaliyyətində sənətin nəzəri məsələləri, milli ədəbi irs, dünya ədəbiyyatı, müasir ədəbi prosesin problemləri xüsusi yer tutur. Geniş oxucu kütləsinə təqdim olunan bu monoqrafiyaya zəngin arxiv materialları, elmi-nəzəri araşdırmalar, xatirələr, ümumən XX əsrin böyük bir dövrünün ədəbi-ictimai gedişatının kontekstində Mirzə İbrahimovun böyük yazıçı olduğu kimi, daşıdığı akademik adına hörmət və ehtiram gətirən bir tədqiqatçı alim, nəzəriyyəçi ədəbiyyatşünas və tənqidçi olduğunu da təsdiq edir.

Teymur Əhmədovun bu monoqrafiyasının böyük bir üstünlüyü həm də ondadır ki, Mirzə İbrahimovun ədəbi-nəzəri irsi dövrün humanitar fikir tarixi, həm də dövlətçilik tarixi ilə paraleldə, bu zəmində tədqiq olunur. Belə tədqiqat üsulu predmetin özündən irəli gəlir və Mirzə İbrahimovun ədəbiyyatşünaslıq əsərlərinin bu kontekstdən kənarda tədqiqi onun milli vətəndaşlıq tutumunu, elmi ideyalarının xalqın milli tərəqqisindəki rolunu ortaya qoya bilməzdi. Akademikliyin elmi-mənəvi və dövlət-xalq naminə statusu monoqrafiyanın bütün fəsillərini, həmçinin bədii-publisistik materialların məqsədini, konseptual mahiyyətini ehtiva edir. Humanitar fikir tarixinə paralel öyrənilən Mirzə İbrahimovun buna mənəvi haqqı var idi və müasirlərinin çoxundan öndə gedirdi.

Monoqrafiyanın ilk fəslində müəllif haqlı olaraq M.İbrahimovun ədəbi-elmi və ictimai-siyasi fəaliyyətinə nəzər yetirir, respublikada və onun hüdudlarından kənarda M.İbrahimova xalqının ədəbiyyatı, dili, mədəniyyəti, tarixi haqqında akademik statusunda söz demək səlahiyyətini konkret əsərlərin təhlili, humanitar fikrə istiqamət verməyin elmi-təşkilati nümunəsini arxiv sənədləri, tarixi faktların məntiqi ilə göstərir. Məlumdur ki, Azərbaycan ədəbiyyatında realizm, Şərq Renessansının yaradıcılıq metodu haqqında mübahisələrdə M.İbrahimov digər görkəmli tədqiqatçılarla yekdil deyildi. Bunun milli ədəbi fikir tarixi ilə bağlı tərəflərinə yenidən qayıdan monoqrafiya müəllifi - Teymur Əhmədov haqlı olaraq belə bir mövqedə dayanır ki, M.İbrahimov ədəbiyyatın bütün tarixi inkişaf mərhələlərində xalq təfəkkürünün, xalqın real həyat tərzinin bədii reallığına üstünlük verirdi.

M.İbrahimovun ədəbi-nəzəri irsi, bu səpgili əsərlərində əksini tapmış konsepsiyaları realizə etməkdə elmi-təşkilati fəaliyyəti T.Əhmədovun monoqrafiyasında bir-birini tamamlayan (mən deyərdim ki, eyni çəkidə, eyni əhəmiyyətdə olan) vəhdətdə öyrənilir.

M.İbrahimovun Cənubi Azərbaycan ədəbiyyatının tədqiqi və təbliği sahəsindəki fəaliyyətinə nəzər yetirdikdə bu böyük şəxsiyyətin gördüyü işin vətəndaşlıq tutumunun mənası, tarixi və müasir əhəmiyyəti bir daha göz önünə gəlir. Mübaliğəsiz demək olar ki, M.İbrahimov Cənubla bağlı böyük bir institutun işini görüb və onun yaratdığı şöbə bu gün də onun missiyasını davam etdirir. Teymur Əhmədov M.İbrahimovun yaradıcılığında Cənubi Azərbaycan ədəbiyyatı probleminə onun bədii yaradıcılığından başlayır, bu mövzunun ədəbiyyatımızın böyük bir qoluna çevrilməsində onun hekayə, povest və romanlarını, bədii publisist yazılarını, Cənublu ziyalılarla yazışmalarını dövriyyəyə gətirir, Cənub ədəbiyyatının sistemli tədqiqinə ədəbi-bədii başlanğıc hesab edir. Başqa sözlə, ədib M.İbrahimovun alim, elmi təşkilatçısının məntiqi olduğunu, birinin digərini tamamladığını böyük təcrübəyə malik təqiqatçı kimi uzlaşdırır. M.İbrahimovla uzun illər bu sahədə çiyin-çiyinə işləmiş müəllifin Cənub şöbəsinin nəşrlərinə, xüsusən dördcildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nın hazırlanmasında böyük enerji, təcrübə tələb edən yaradıcılıq prosesinə, bu məqamda M.İbrahimovun müdrik alimlik və təşkilatçılıq istedadına verdiyi dəyər yerindədir və onun yaratdığı bu elmi məktəbin mənasını bir daha bütün tərəfləri ilə üzə çıxardır. İkicildlik "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" bu antologiyaların zəminində yazılmış sanballı "tarix"dir və bu istiqamətdə aparılacaq çoxcildliklərin elmi-metodoloji əsasını qoyur. Teymur Əhmədovun da müəllifi və redaktoru olduğu bu dəyərli əsər haqqında görkəmli elm və söz adamlarının, ictimai xadimlərin mülahizələri monoqrafiyada yerinə düşür və M.İbrahimovun akademik-elmi təşkilatçısı kimi əvəzsiz xidmətlərinin mühüm sahəsinə işıq salır.

Professor Teymur Əhmədov bu gün də öz ustadı Mirzə İbrahimovun əsasını qoyduğu böyük vətəndaşlıq işini qeyrətlə davam etdirir. "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" əsərinin nəşri onun böyük xidmətidir. Teymur müəllimin Ə.Qaracadaği, M.Talıbov, M.Ə.Möcüz, M.Şəhriyar, H.Sahir haqqında portret oçerkləri, digər icmal məqalələri onun elmi maraq dairəsinin genişliyinin təzahürüdür.

Professor Teymur Əhmədovun beşcildlik "Seçilmiş əsərləri" onun yaradıcılığında tarixçilik, publisistika, ədəbi-nəzəri təhlilin bir-birini tamamladığını göstərir. Beşcildliyin bir cildinə onun publisist yazıları daxil edilmişdir. Bu yazılarda xalqımızın tarixi taleyinin ən vacib məqamları böyük həyat təcrübəsi, bədnam qonşularımızın xalqımıza qarşı düşmənçilik siyasətinin ağrılarını öz nəsil-nəcabətinin timsalında görən bir şəxsiyyətin qənaətləri zəminində təhlil edilir. Uşaqlıq və gənclik illərindən üzü bəri apardığı müşahidələr və əldə etdiyi tarixi faktlar əsasında yeni nəsillərə zəngin bilgi verir. Bu milli qeyrət, milli namus və vətəndaşlıq bilgisidir.

Görkəmli ədəbiyyatşünas alim, professor Teymur Əhmədov, eyni zamanda dəyərli elm təşkilatçısı və jurnalistdir. Uzun illərdir "Respublika" qəzetinin baş redaktoru kimi müstəqil dövlətçilik institutlarının formalaşması prosesinə yardımçı olan yüzlərlə dəyərli yazının müəllifi və təşkilatçısıdır. Xalqımızın tərəqqisi yolunda onun xidmətləri dövlətimiz və ədəbi-elmi ictimaiyyətimiz tərəfindən yüksək qiymətləndirilmişdir.

Şərəfli işində gənclik enerjisi ilə yaşayıb-yaradan professor Teymur Əhmədova uğurlar diləyi ilə.

***Şirindil ALIŞANOV,***
***filologiya elmləri doktoru, professor***

# Kəndli deyir: «Yayın öz işi var, qışın öz işi...»



İndi aqrar sahədə gələn ilin bol məhsulunun təməli qoyulur

Kənd təsərrüfatında növbəti ilin bol məhsulunun təməli qoyulur. Bu məqsədlə intensiv şəkildə buğda, arpa və digər kənd təsərrüfatı bitkilərinin əkini həyata keçirilir. Bununla yanaşı, kəndli sahələrdən son məhsulunu da yığaraq nə qazandığının hesabını aparır.

Deyə bilərik ki, cari ildə aqrar sektorda məhsul istehsalında uğurlar qazanılıb. Bu da fermerlərin yaxşı qazanc əldə etməsi deməkdir. Sözsüz ki, belə nailiyyətlərin əldə edilməsi dövlət tərəfindən aqrar sektora verilən hərtərəfli dəstəyin nəticəsidir.

Biləsuvar rayonunun fermerləri gələn il bol məhsul əldə etmək üçün səylə çalışırlar. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, bu il rayonda 82 min 138 ton taxıl yığılıb. Növbəti ildə daha çox məhsul götürmək üçün fermerlər 32 min sahədə keyfiyyətli şum açaraq və yüksək reproduksiyalı toxumlardan istifadə edərək səpin aparırlar. İndiyədək 22 min 259 hektar sahədə səpin aparılıb ki, bunun da 9 min 568 hektarı arpa, 12 min 691 hektarı buğdadır.

Cari ildə Ağsu rayonunun fermerləri 26 min 897 sahədə səpin həyata keçiriblər. Daha çox məhsul əldə etmək üçün rayon fermerləri ötən ildəkindən 774 hektar çox sahədə səpin aparıblar. Qeyd edək ki, rayonda yerli şəraitə uyğun olan daha məhsuldar "Aran", "Qobustan", "Murov-2" buğda, "Cəlilabad-19", "Qarabağ-22", "Dəyanətli" arpa sortlarından istifadə olunub.

Dağ rayonu olan Yardımlıda son illər taxılçılığa maraq artıb. Ötən il rayonda 3447 hektar sahədə taxıl əkilib. Həmin əkin sahələrindən cari ildə 7156,6 ton buğda, 499,2 ton arpa götürülüb. Gələn ildə də yüksək məhsul götürmək üçün rayonda 3618 hektar sahədə şum aparılıb.

Pambıqçılıq aqrar sektorda çəkisinə və əhalinin məşğulluğuna görə ən iri sahələrdən biridir. Pambıqçılıq ölkəmiz üçün, həmçinin taxılçılıqdan sonra ikinci strateji sahə sayılır. Ağcabədi ölkəmizdə iri pambıqçılıq rayonlarından biridir. İndiyədək fermerlər əkin sahələrindən 37,6 min tondan çox məhsul toplayıblar. Yığım davam edir, fermerlər pambığı son qozasınadək yığmağa çalışırlar. Cari ildə məhsuldarlıq hər hektardan 35,9 sentner olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalı 5513 ton, orta məhsuldarlıq isə 4,49 sentner yüksəkdir. Vurğulayaq ki, ötən il rayonda 10 min 452,2 hektar sahədə pambıq əkilərək 32 min 99 ton məhsul götürülüb. Həmin dövrdə məhsuldarlıq 30,7 sentnerə çatıb.

Dövlət tərəfindən baramaçılığın inkişafına verilən dəstək, həmçinin tütünçülərə subsidiyaların, əldə edilən məhsula görə dövlət tərəfindən vəsaitin ödənilməsi bu sahəyə olan marağı da artırır. Cari ildə rayonda 11 min ədəd tut tingi əkilib. Məqsəd burada baramaçılığı inkişaf etdirməkdir. Tinglər İmişli Şəhər Bələdiyyəsi tərəfindən "ASAN xidmət" mərkəzinin ərazisində əkilib. Körpə fidanlara düzgün və aqrotexniki qaydada qulluq aparılması üçün rayonda xüsusi komissiya yaradılıb. Bildirək ki, rayonda baramaçılığın inkişafı üçün son 5 ildə 109 min tut tingi əkilib.

Hacıqabul rayonunda da fermerlər baramaçılığa maraq göstərir. Ötən dövr ərzində rayonda 2 minə yaxın tut tingi əkilib. Son 4 ildə Hacıqabulda ipəkqurdu bəslənilir. Fermerlər tərəfindən bu sahədə yüksək uğurlar əldə edilib. Cari ildə rayonda 52 kümçü ipəkqurdu bəsləyərək məntəqələrə 4 ton 50 kiloqram barama təhvil verib.

Rayonda daha yüksək nailiyyətlərin əldə edilməsi üçün yeni tut bağları salınır. Bu məqsədlə ötən il rayonun müxtəlif kəndlərində olan baramaçılara 20 min 580 ədəd tut tingi əkilmək üçün paylanılıb. Cari ildə də bu istiqamətdə işlər davam etdirilir. Rayon baramaçılarına Ekologiya və Təbii Sərvətlər Nazirliyindən alınan 1900 ədəd tut tingi paylanılıb.

Ölkəmizdə ənənəvi kənd təsərrüfatı sahələrindən biri də tütünçülükdür. Dövlətin bu sahəyə göstərdiyi diqqət sayəsində son illər tütün istehsalı sürətlə artır. İri tütünçülük rayonlarından olan Balakəndə bu il 425 hektar sahədə tütün əkilib. Tütünçülər "Virciniya Botaniki" sortuna üstünlük verirlər. Bununla yanaşı, Balakəndə "Berley ətirli" və "İmmuniy" növləri də yetişdirilib. İndiyədək rayon üzrə 786 ton quru tütün istehsal olunub. Qeyd edək ki, ötən il balakənli fermerlər sahələrdən 512,3 ton məhsul istehsal ediblər. Builki rəqəmin 786 ton olması rayonda tütünçülüyün sürətlə inkişafını sübut edir.

Aqrar sahədə görülən işlər təsdiqləyir ki, kəndlinin qayğıları ilboyu davam edir. Təsərrüfat adamları həmişə "yayın öz işi var, qışın da öz işi" deyirlər. Təcrübə bu qaydaya əməl etməyin kəndliyə uğur gətirdiyini göstərir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azercell

abunəçilərinin nəzərinə

25.01.2021-ci il tarixindən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan "GəncOL2" və "GəncOL6" tarif paketləri çərçivəsində "WhatsApp" tətbiqində, "GəncOL9" tarif paketi çərçivəsində isə "WhatsApp", "Telegram", "Viber", "Twitter"və "Facebook Messenger" tətbiqlərində mətnli yazışmalar üçün ilk növbədə 1GB pulsuz internet həcmindən, sonra "GəncOL" paketi çərçivəsində təqdim olunan əsas internet həcmindən istifadə imkanı təqdim ediləcək. "GəncOL" paketi çərçivəsində təqdim olunan əsas internet həcmi istifadə müddətindən əvvəl bitdikdə və hər hansı əlavə internet paket sifariş edilmədikdə, müvafiq dövrün sonunadək yuxarıda göstərilən mətn yazışmaları üçün 16 kb/s sürət həddində 10 GB pulsuz internet həcmindən yararlanmaq mümkün olacaq.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

# Biz birlikdə güclüyük!

# Koronavirusun yeni növü sürətlə sərhədlərimizə yaxınlaşır





*Əvvəli 1-ci səh.*

Ölkəmizdə koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, eyni zamanda maska istehsalı müəssisəsinin açılması, yeni təcili tibbi yardım avtomobillərinin təminatı kimi mühüm əhəmiyyətli işlər həyata keçirilib.

Koronavirus infeksiyasının aparılan testlər sayəsində erkən aşkarlanması da effektiv vasitələrdən biridir. Bu sahədə də ölkəmiz lazımi addımları atıb. Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan tibbi laboratoriyalar alınıb, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib. Diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib. Hazırda ölkədə testlərin aparılması üçün 23 laboratoriya fəaliyyət göstərir və adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. İndiyədək vətənimizdə COVID-19-a yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar ümumilikdə 2 milyondan çox test aparılıb.

Koronavirus xəstələrinin dövlət hesabına müalicəsi, həkimlərin sayının artırılması və təcrübə mübadiləsi məsələləri də kompleks şəkildə həllini tapıb. Azərbaycana beş ölkədən - Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlib və onlar koronaviruslu xəstələrin müalicəsi istiqamətində kömək göstəriblər.

Dünya ölkələrinin də təcrübəsindən bəlli olduğu kimi, COVID-19 xəstəliyinin yayılmasının qarşısının alınması istiqamətində görüləcək ən effektiv vasitələrdən biri də sərt məhdudiyyətlərin tətbiqidir. Buna görə də ölkəmizdə son aylarda yaşanan yüksək yoluxma səviyyəsi nəzərə alınaraq virusun yayılmasının qarşısının alınması məqsədilə bir sıra addımlar atılıb, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən dekabrın 14-dən gələn il yanvarın 18-dək sərtləşdirilmiş karantin tədbirlərinin tətbiqinə başlanılıb.

Tətbiq olunan məhdudiyyətlərin iqtisadi fəallığa təsiri nəzərə alınaraq əvvəlki sərtləşdirilmiş karantin rejimi zamanı müəyyən edilmiş ehtiyacı olan təqribən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardımın göstərilməsi planlaşdırılıb. Eyni zamanda zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlara yardım edilməsi də nəzərdə tutulub.

### Əhalinin vaksinasiyası dövlət hesabına həyata keçiriləcək

Ölkəmizdə vaksinlərin alınması ilə əlaqədar hazırlıq işləri görülüb və bu məqsədlə GAVI tərəfindən təsis edilmiş COVAX təsisatına qoşulmuşuq. Vaksinasiya isə pulsuz həyata keçiriləcək. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlının sözlərinə görə, COVAX təsisatı çərçivəsində ölkəmiz əhalinin sayının 10 faizi qədər vaksin alacaq. Növbəti dövrdə əhalinin müəyyən sayı çərçivəsində də vaksinlər alınacaq: "Qısa müddətdə bir, iki, hətta üç milyon insanı vaksinasiya etsək, o qədər də çox kütləvi immunitetə nail olacağıq".




Onu da vurğulamalıyıq ki, son bir neçə gündür ki, Azərbaycanda koronavirus infeksiyasına yoluxma ilə bağlı müsbət dinamika müşahidə edilir. Belə ki, artıq yoluxma sayının 4 mindən aşağı düşdüyü müşahidə edilir. Paralel olaraq, sağalanların sayı da yoluxanları üstələyir ki, bu da vəziyyətin yaxşılığa doğru dəyişdiyindən xəbər verir.

Göründüyü kimi, Azərbaycanda koronavirusa qarşı hərtərəfli mübarizə aparılması infeksiyanın yayılma arealını məhdudlaşdırır. Xüsusilə də dövlətin zamanında gördüyü tədbirlər və vətəndaşların qoyulan qaydalara əməl etməsi təhlükənin sovuşacağını şərtləndirir. Əminliklə demək olar ki, hazırda da pandemiya tələblərinə ciddi əməl edilərsə, qarşıdakı günlərdə vəziyyət daha da yaxşılaşacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Britaniyada koronavirusun yeni ştammı sürətlə yayılır

## Dünya dövlətləri məhdudiyyət tədbirlərini gücləndirir

*Əvvəli 1-ci səh.*

Ən çox yoluxma halları İngiltərənin cənub-şərqində qeydə alınmışdır. VUI2020/12/01 adı almış yeni ştamm adi koronavirusa nisbətən daha sürətlə yayılır ki, bu da xəstəliyə yoluxma hallarının artmasına gətirib çıxara bilər. Birləşmiş Krallığın Baş naziri Boris Conson bildirmişdir ki, koronavirusun yeni genetik variantı məlum ştamma nisbətən 70 faiz daha çox yoluxucu ola bilər. Eyni zamanda VUI2020/12/01 ştammının xəstəliyin daha ağır formalarını törədəcəyinə, yaxud ölüm hallarının artmasına səbəb ola biləcəyinə dair məlumat hələ yoxdur. Onun mövcud peyvəndlərə reaksiyası da bilinmir.

Koronavirusun yeni ştammının sürətlə yayılması təbii olaraq, ilk növbədə, Avropa ölkələrini narahat edir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) məsələnin ciddiliyinin fərqindədir. ÜST-ün verdiyi məlumata görə, koronavirus infeksiyasının yeni versiyası daha beş ölkədə - Niderland, Danimarka, İtaliya, Cənubi Afrika Respublikası və Avstraliyada da aşkarlanmışdır. Təşkilat qeyd etmişdir ki, koronavirusun mutasiyaya uğraması daha çox yoluxmaya səbəb olsa da, virus daha ölümcül deyil. Eyni zamanda indiyədək VUI2020/12/01 ştammının əldə olan vaksinlərə hansısa şəkildə fərqli reaksiya verdiyinə dair elmi dəlil yoxdur. ÜST bəyan etmişdir ki, mutasiyanı araşdırıb digər ölkələrin hakimiyyət orqanlarını məlumatlandıracaq.

Belə bir qeyri-müəyyən vəziyyətdə Avropanın ayrı-ayrı dövlətləri öz ərazilərində VUI2020/12/01 ştammının yayılmasının qarşısını almaq üçün zəruri tədbirlər görür. Böyük Britaniya hökuməti dekabrın 20-dən bəri koronavirusla mübarizə tədbirlərini xeyli sərtləşdirmişdir. Baş nazir Cohnson bildirmişdir ki, "virus hücum üsulunu dəyişdirirsə, biz də müdafiə üsulunu dəyişdirməliyik". Hökumətin qərarı ilə paytaxt Londonda, eləcə də İngiltərənin şərq və cənub-şərq bölgələrinin əksəriyyətində yeni, 4-cü məhdudiyyət səviyyəsi tətbiq edilmişdir. Bu bölgələrin sakinləri zərurət olmayanda evlərindən çıxmamalıdırlar. Mağazalar (ərzaq mağazaları və apteklər istisna olmaqla) və idman zalları bağlanmışdır. 4-cü məhdudiyyət səviyyəsinin elan olunduğu ərazilərə giriş-çıxış qadağandır. Həmçinin sözügedən bölgələrin sakinlərinin evdən kənarda gecələməsi qadağan olunmuşdur. Digər ev təsərrüfatlarının sakinləri ilə yalnız binalardan kənarda görüşmək mümkündür. Vətəndaşlara imkan daxilində evdən işləmək tövsiyə olunur.

Birləşmiş Krallığın adıçəkilən hissələrində yeni məhdudiyyətlər azı iki həftə qüvvədə qalacaq. Beləliklə, 4-cü məhdudiyyət səviyyəsinin tətbiq olunduğu bölgələrdə əhali Milad bayramını yalnız dar ailə çərçivəsində qeyd edə biləcək.

Niderland hakimiyyət orqanları koronavirusun yeni ştammının yayılması ilə əlaqədar Böyük Britaniyadan təyyarələrin qəbulunu dayandırmaq qərarına gəlmişdir. Qadağa 20 dekabr yerli vaxtla saat 06:00-dan başlamışdır və azı 1 yanvaradək qüvvədə olacaq.

Belçika 21 dekabr yerli vaxtla saat 00:01-dən etibarən Birləşmiş Krallıq ilə hava və dəmir yolu əlaqəsini kəsmişdir. Məhdudiyyət, ilk növbədə, Brüssellə Londonu birləşdirən "Eurostar" sürət qatarlarına şamil olunmuşdur. Tədbir azı 24 saat qüvvədə qalacaq və lazım olduqda uzadıla bilər. Belçika hakimiyyət orqanları, həmçinin britaniyalı tranzit sərnişinlərinin qarşılaşdıqları problemləri həll etmək üçün fransız həmkarları ilə əlaqə saxlayır.

Oxşar tədbirlərə İtaliya da əl atmışdır. Hökumət Böyük Britaniya ilə aviaəlaqəni dayandırmışdır. Bundan əlavə, son iki həftə ərzində Britaniyada olmuş adamların İtaliyaya girişi qadağan edilmişdir. İtaliya Səhiyyə Nazirliyi izah etmişdir ki, yeni ştamm, çox güman, "klassik" SARS-CoV-2-dən daha ölümcül deyil, amma insandan-insana xeyli asan keçir. İtalyan mütəxəssislərinin fikrincə, koronavirusa qarşı hazırlanmış vaksinlər "ingilis" ştammına qarşı da işləyir.

Avropanın digər ölkələri də koronavirusun yeni ştammını "buxovlamaq" məqsədilə sərt tədbirlər görür. Belə ki, Fransa Böyük Britaniyadan təyyarə uçuşlarının qəbulunu 48 saat dayandırmağa qərar vermis, həmçinin Birləşmiş Krallıqla hər hansı nəqliyyat əlaqəsini kəsmişdir.

Almaniya, İsveçrə, Bolqarıstan, Estoniya və Litva dekabrın 31-dək Birləşmiş Krallıqla aviaəlaqəni dayandırmışdır. Avstriya da Böyük Britaniyadan sərnişin təyyarələrinin qəbulunu qadağan etmək qərarına gəlmişdir.

Türkiyə yeni koronavirus ştammının yayılması üzündən Böyük Britaniya, Hollandiya, Danimarka və CAR-a təyyarə uçuşlarına müvəqqəti olaraq qadağa qoymuş, eyni zamanda həmin ölkələrdən sərnişin təyyarələrinin qəbulunu dayandırmışdır. İsrail, Kanada, Argentina, Kolumbiya və Çili də bu cür qərar qəbul etmişdir.

Koronavirusun yeni ştammının meydana çıxmasından narahatlıq keçirməyən dövlətlər də var. Belə ki, ABŞ Səhiyyə Nazirliyi narahatlıq üçün əsas görmür. Səlahiyyətli hakimiyyət orqanları ölkədə koronavirusun yeni genetik variantının olub-olmadığını araşdırır, eyni zamanda hesab edir ki, hazırlanmış peyvəndlər, çox güman, "ingilis" ştammından müdafiəni təmin edəcək. Bir sıra ölkələr, o cümlədən Rusiya, İspaniya və Kipr hələ ki Birləşmiş Krallıqla aviaəlaqəni dayandırmaq, yaxud digər məhdudlaşdırıcı tədbir barədə düşünmür.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# "Xalq Əmanəti" layihəsinin XX nəşri - Zəlimxan Yaqub

Xalq Bank "Xalq Əmanəti" layihəsi çərçivəsində sayca iyirminci nəşrini təqdim edir. Yubiley nəşri müasir Azərbaycan poeziyasının klassiki, Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığına həsr olunub. "Zəlimxan Yaqub. Seçilmiş əsərləri" toplusunda şairin poetik irsi, onun yaradıcılığının müxtəlif mərhələləri əks olunub.




Gücünü torpaqdan, el-obadan alan şair xalqımızın folklor təfəkkürünü, yazılı ədəbiyyatın əsas ideyalarını, dilimizin zəngin bədii imkanlarını dərindən mənimsəyərək həyatını vətənimizin, milli-mənəvi dəyərlərimizin tərənnümünə həsr etmişdir. Zəlimxan Yaqub mütəfəkkir şairdir. O Azərbaycanı bölgə-bölgə, oba-oba, oymaq-oymaq gəzir, mənsub olduğu xalqı sevərək öyrənir və özü dediyi kimi, "xalqla nəfəs-nəfəsə dayanır, ünsiyyətə girir, dərdlinin həmdərdi, söhbətcilin həmsöhbəti olur". Zəlimxan Yaqub yaradıcılığının ən mühüm göstəricilərindən biri onun etnoqrafikliyidir. Mənsub olduğu xalqı bir peşəkar tadqiqatçı-etnoqraf səviyyəsində mükəmməl tanıyan şair yaradıcılığının məzmun-mündəricəsindən başlamış forma-intonasiyasına qədər olduqca millidir. Onun yaradıcılığını müasir ədəbi-ictimai mühit şifahi xalq ədəbiyyatı hadisəsi kimi qəbul edir. Şairin şeiri dövrün, zamanın tələblərinə cavab verir və milli ictimai şüura əhəmiyyətli təsir göstərmək, hissləri, duyğuları coşdurmaq gücündədir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 50 illik yubileyi münasibətilə şairə ünvanladığı məktubda yazırdı: "Siz müasir ədəbiyyatımızda zəngin şeir ənənələrini yaşadan şairlər nəslinə mənsub olan sənətkarlarımızdansınız. Xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən şifahi xalq yaradıcılığından ustalıqla bəhrələnməklə Siz Azərbaycan poeziyasının inciləri səviyyəsinə qalxa bilən nəzm əsərləri yaratmısınız".

Zəlimxan Yaqub 1950-ci ildə Borçalı mahalının Kəpənəkçi kəndində anadan olmuşdur. 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini bitirmişdir. İlk şeiri 1966-cı ildə sovet Gürcüstanının "Qələbə bayrağı" qəzetində dərc edilmişdir.

Böyük şair həm də cəmiyyətimizə əməli fəaliyyəti ilə xidmət edən aktiv ictimai xadimlərdən biri olmuşdur. O, 1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1994-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının üzvü, 1995-2005-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinin birinci və ikinci çağırış millət vəkili seçilmişdir. 2008-ci ildən ömrünün sonunadək Azərbaycan Aşıqlar Birliyinin sədri olmuşdur. İctimai-siyasi fəaliyyətinə görə müxtəlif illərdə Azərbaycan Respublikasının "Şöhrət", Gürcüstanın "Şərəf" ordenləri ilə təltif edilmiş, 2005-ci ildə "Azərbaycanın xalq şairi" fəxri adına layiq görülmüşdür.

Zəlimxan Yaqubun Azərbaycan ədəbiyyatındakı yerini müəyyən etmək üçün onun nəhəng istedadını, zəngin dilini, çoxşaxəli yaradıcılığını dərindən araşdırmaq lazımdır. Onun yaradıcılığı poeziyanın janr təsnifatına sığmır: o, sözün geniş mənasında məhəbbət şairidir. Onun yaradıcılığında, bir küll halında baxılarsa, bilavasitə məhəbbət şeirləri, bəlkə də, o qədər çox deyil, ancaq mükəmməldi, ədəb-ərkanlıdı.

Zəlimxan Yaqub vətənpərvər şairdir - onun üçün vətən yalnız təbiət və ya coğrafiya deyil, eyni zamanda təbiətin və coğrafiyanın yetirdiyi milli-mənəvi ruhdur ki, şair bu ruhun həmişə canlı, mübariz və güclü olmasını arzu edir. Xüsusilə vətənin, millətin başının üstünü təhlükələr alanda.

Zəlimxan Yaqub bütöv türk dünyasının şairidir - o, mənsub olduğu türk etnosunun tarixini, mədəniyyətini nəinki yaxşı bilən, eyni zamanda bu tarixi, mədəniyyəti (və mentaliteti!) özünün yaradıcı varlığında təcəssüm etdirən bir sənətkar, düşüncə adamıdır.

